# Unudulmayan Nijad fenomeni

## (Görkəmli ziyalı Nijad Mikayılzadə və onun “Həyat haqqında düşüncələr” miniatür kitabı haqqında)

Bizim ölkəmizdə miniatür kitab buraxmaq ənənəsi artıq 70-ci illərdən yaranıb. Doğrudur, əvvəllər də tək-tək olsa da, kiçik miniatür nəşrlər olub. Ancaq bu nəşrlər davamlı şəkildə olmadığından miniatür kitab nəşrinin çap üsulu da, ümumiyyətlə, nəşriyyat işində, xüsusilə, mətbəə fəaliyyətində o qədər diqqəti cəlb etməyib.

Mənim bütün həyatım poliqrafiya sahəsinə xidmətdə keçdiyi üçün, hətta tək-tək hallarda olsa da buraxılan miniatür nəşrlər üçün məsuliyyət daşımalı olmuşam. Müxtəlif mətbəələrdə çalışarkən xüsusi dövlət sifarişi ilə gəlmiş miniatür kitabların buraxılışına rəhbərlik etmişəm. Hətta “Ulyanovskaya pravda” nəşriyyatında işləyəndə də miniatür kitabların buraxılmasına təşəbbüs göstərmişəm. Onu da deyim ki, mənim təcrübəmdə ilk miniatür nəşr kimi Sovet ideologiyasının hakim olduğu dönəmdə xüsusi diqqət göstərilən Leninin miniatür kitabının buraxılması olub. O dövr üçün bu çox məsuliyyətli iş idi. Hətta mətbəə imkanları da məhdud olduğundan bu da işi bir qədər çətinləşdirirdi.

Sonralar miniatür kitaba maraq artdı. Müəlliflər miniatür kitabların buraxılması üçün can atırdılar. Bu istəyin yaranmasında müstəqillik dövründə fəaliyyətə başlayan “Miniatür kitab muzeyi”nin yaradılmasının da xüsusi təsiri oldu. Poliqrafiya təcrübəmdə xüsusi yeri olan miniatür nəşrlərdən biri də Nijad Mikayılzadənin “Həyat haqqında düşüncələr” kitabıdır.

Əvvəlcə onu deyim ki, Nijad Mikayılzadəgörkəmli filosofdur. Doğrudur, o, ixtisasca fizioloq, patofizioloq həkim kimi tanınırdı. Bu sahədə elmi araşdırmalar müəllifi idi. Tibb elmləri namizədi, alimlik dərəcəsi almışdır. Azərbaycan Tibb Universitetinin dosenti kimi fəaliyyət göstərirdi. Ancaq bütün bunlardan başqa Nijad Mikayılzadə həyatını çox dəyərli kitablar yazmağa da həsr etmişdi. Bir sözlə, maarifçi və publisist kimi tanınan Nijad Mikayılzadə “Fenomenlərin sirri” kitabının, “İngiliscə-azərbaycanca tibb lüğəti”nin, ingilis dilində “Fiziologiya” və “Patofiziologiya” dərsliklərinin, 500-dən artıq elmi-kütləvi, publisistik və bədii yazının müəllifi, “Kütləvi tibb ensiklopediyası”nın, 6 cildli (2 cildi çapdan çıxıb) “Xəzər ingiiscə-azərbaycanca böyük lüğət”in, “Tibbi biliklərin əsasları” dərsliyinin, onlarla dərslik, dərs vəsaiti və metodik göstərişlərin, bir qismi xaricdə dərc edilmiş 190-dan artıq elmi məqalənin müəllifi və ya müəlliflərindəndir. Bu qeydlər Nijad Mikayılzadənin “Həyat haqqında düşüncələr” miniatür kitabının son üzündə verilmiş məlumatlar əsasında tərtib olunub. O, çox maraqlı müəllif idi. Hətta öz kitabına epiqrafını da elə miniatür kitabın axırıncı üzündə vermişdi: “Oxucularımı düşündürə bilmişəmsə, məqsədimə çatmışam”. Onu da qeyd edim ki, Nijad Mikayılzadə poliqlot idi, yəni çoxlu dil bilirdi. Azərbaycan və türk dillərindən başqa ingilis, rus, fars, ərəb və digər dillərdə də sərbəst danışır, oxuyub yaza bilirdi.

Miniatür kitab Nijad Mikayılzadənin eyni adlı 775 səhifəlik “Həyat haqqında düşüncələr” fundamental kitabının əsasında hazırlanmışdı. Ona görə də onun haqqında məlumat da elə həmin mənbədən əxz edilmişdi.

Mən çox istərdim ki,görkəmli ziyalı Nijad Mikayılzadəni oxucularıma bir az da yaxından tanıdım. Miniatür kitabın üz qabığında verilmiş məlumatın qalan hissəsində deyilirdi: “N.Mikayılzadənin bu kitabında onun yarım əsrdən artıq müddət ərzində dövri mətbuatda dərc edilmiş Azərbaycan, rus və ingilis dillərində yazıları toplanmışdır. N.Mikayılzadənin düşüncə, şeir və digər bədii yazılarında, publisistik məqalələrində müəllifin həyatımızın ən müxtəlif sahələrinə, xüsusən xalqı aldadan ekstrasens və telepatlara, mövhumata və dini fanatizmə dair orijinal fikirləri öz əksini tapmışdır”. Təqdim olunan mətndən göründüyü kimi o, maarifçilik yolunda əzmlə, inadla çalışmışdır. Xalqı aldadan dələduzların ifşa olunması üçün bütün səylərini göstərirdi. Onun kitablarını oxuyan hər kəsə məlum olurdu ki, mövhumat, xurafat, yalançı ekstrasenslik, telepatlıq... bütün bunlar insanları aldatmaq vasitəsidir.

Nijad Mikayılzadənin “Həyat haqqında düşüncələr” miniatür kitabında görkəmli ədəbiyyat xadimlərinin də rəylərinə yer verilib. Xalq yazıçısı Anar bu kitabın hələ əlyazma nüsxəsi ilə tanış olarkən yazmışdı: “Bu kitab bədii yaradıcılıqla məşğul olan həkimlərimizin ənənələrini yarım əsrdən artıq müddət ərzində davam etdirən müəllifi xalqını ürəkdən sevən, vətənin düşmənlərinə qarşı dərin nifət bəsləyən vətənpərvər, cəhalət, mövhumat, dini fanatizm barışmaz mübariz kimi xarakterizə edir. Müəllifin aforizm xarakterli düşüncələri, yumoristik miniatürləri, farscadan tərcümələri, tədqiqat xarakterli, parapsixoloji fenomenlərin mahiyyətini açan yazıları, rastlaşdığı görkəmli şəxsiyyətlərimiz haqqında xatirələri, dünya ədəbiyyatı, incəsənət, musiqi xəzinəsi barədə verdiyi məlumatlar maraqla oxunmaqla bərabər, gənclərimiz üçün tərbiyəvi əhəmiyyət daşıyır”. Biz bu qeydlərin miniatür kitabın əvvəlində “Ön söz” kimi verilməsindən məmnun olduq, çünki xalqımızın böyük oğlu Anar, Nijad Mikayılzadənin düşüncə aləmini düzgün bilmiş və sərrast dəyərləndirmişdi. Anar doğru olaraq yazırdı ki, Nijad Mikayılzadənin bu kitabı gənclərimiz üçün tərbiyəvi əhəmiyyət daşıyır.




Müəllif kitabının titul səhifəsində “Həyat haqqında düşüncələr” miniatür kitabını sevimli nəvələri Aydana və Ləmana ünvanladığını qeyd edir.

Onu da deyim ki, Nijad Mikayılzadənin publisistik və poetik yaradıcılığı ilə 2010-cı ilə qədər “Kredo” qəzetinin oxucuları yaxından tanış olub. Çünki Nijad Mikayılzadə redaksiya heyətinin üzvü kimi qəzetlə sıx əlaqə saxlayırdı. Eyni zamanda zəngin yaradıcılığının xeyli hissəsi ilk dəfə bu qəzetdə işıq üzünə çıxıb. Ona görə də Azərbaycan ədəbi-mənəvi mühiti Nijad Mikayılzadəni həmin dövrdə həm də şair və publisist kimi yaxından tanıya bilmişdi.

Görkəmli tənqidçi Qurban Bayramov Azərbaycan Yazıçılar Birliyinin və “Kredo” qəzetinin ilin ədəbi yekunlarına həsr edilmiş müşavirədə poeziya haqqında etdiyi məruzədə (07.06.2007) Nijad Mikayılzadənin poetik yaradıcılığına da xüsusi yer ayırmışdı.Həmin məruzədən müvafiq parçanı biz “Həyat haqqında düşüncələr” miniatür kitabının əvvəlində oxumaqdan məmnunluq duyuruq: “Nijad Mikayılzadənin “Rənglər” üslubunda “Əlvahi-intibah” adlandırdığı şeir silsiləsi sərbəst vəzndə və sərbəst düşüncə tərzində yazılıbdır. Şeirlər fikrin impultiv döyüntüləri ilə ritmə düşür. Teleqraf üslubu sona qədər qorunur. “Rənglər”dən fərqli olaraq bu şeirlər həcmcə böyükdür. Assosiativ şəkildə fikirdən fikir yaranır, fikir silsilələnir... Şeirlərdə ironiya, sarkazm, fikrin alt qatı, sətiraltı sosial mənalar güclüdür. Sətiraltı və sətirüstü mənalar çulğalaşıb. Hər şeirin adından götürülən öz obrazlar sistemi var və bu obrazlar mənəvi-əxlaqi, sosial-siyasi eybəcərliklərin ədəbi-bədii şərhinə çevrilir. Şeirlərdə intellektual-meditativ qat güclü olduğundan, oxucudan xüsusi emosional-assosiativ impuls istəyir...”. Qurban Bayramov qeydlərinin əvvəlində, xüsusilə müəllifin yaradıcılıq üslubunda ironiyanı, sarkazmı yüksək qiymətləndirir. Qeyd edir ki, onun yaradıcılığının alt qatında sətiraltı sosial mənalar çox güclüdür.

Nijad Mikayılzadə ömrü boyu fikir döyüşləri əhatəsində olub. Ona görə də həyatın təzadlarını öz rənglərində görə bilirdi. Xüsusilə, onun Rəsul Rza təsiri ilə, amma yeni məzmunda, yeni ifadə tərzində qələmə aldığı şeirlər kəskin ruhu ilə seçilirdi. Tənqidçi də Nijad Mikaylzadənin ədəbi üslubunu dəqiq qavrayaraq, onun fikir dərinliklərinə enə bilir. O, Nijad Mikayılzadəni nəzərdə tutaraq yazır: “Müəllif qabaqcadan obrazı ortaya qoyur - bu, şeirlərin adlarıdır. Məsələn, “Qara qatıq”, şeirindən bir misal: “... yad çöllərdə vətəndə qazandıqlarını göyə sovuran qaradaşöpənlər...Qarabağı almaq üçün Qarabağdan başqa dünyanın hər yerinə qaçanlar” və s. Yaxud “Yandıran su” şeirindən bir fraqment: “Mərd sözün namərd cavabı. Qeyrətliləri qeyrətsizlərin məhv etməsi savab”ı, ... İnsan kimi yaşayıb nakam köçənlər. Diriliyində hamının dadına çatan, amma cənazəsi ortada qalan insan...” və s. Fikrin dərinliyini açmağa ehtiyac yoxdur!!!”. Müəllif, yəni tənqidçi sözünün sonunda üç nida işarəsindən istifadə edir, bu da onun ədəbiyyat sərrafı kimi Nijad Mikayılzadə sözü önündə heyrətinin ifadəsidir. O, Nijadın təsdiq və inkar qarşıdurmalarını necə sərrastlıqla ifadə etməsini oxucu diqqətinə çatdırmaqdan təkcə məmnunluq duymur, həm də hiss olunur ki, bundan yüksək zövq alır.

Həyatımız faciələrlə doludur. Bu faciələrin bir çoxu dahilərə münasibətdə üzə çıxır. Nəsiminin dərisinin soyulması hər halda cəmiyyətdə olan nadanlığın nəticəsi idi. Tənqidçi Nijad Mikayılzadənin özünə istinadən görkəmli fikir adamlarının adlarını çəkir. Nijad Mikayılzadənin onların taleyinə münasibətini dövrün insanlığın taleyinə olan münasibəti kimi xarakterizə edir:“Nijad Mikayılzadənin “Faciələr” şeirini oxuyanda bir daha dərk edirsən ki, bu dünyada nadanlar dahilərdən “güclü” olublar, həmişə onları məhv ediblər. Dahiləri nadanlardan qorumayıblar - Sokrat, Kampanella, Eynəlqüzət, Sührəverdi, Hümam Təbrizi, Cordano Bruno - bu qəbildən əsrimizin bu günlərinə qədər davam edən faciələri Nijad Mikayılzadə sıralayır, xatırladır, səbələrini açıqlayır. Hakimi-mütləqlərin hər cür siyasətdən kənar alimlərin, şairlərin, yazıçıların məhvinə yönəlik qəddarlığını pisləyir və sonunda mənə görə ən böyük faciəni verir: “... faciələri dərindən dərk edən insan!”. Hər bir insan öz zamanının dərk etməlidir, onun inkişaf istiqamətinə kifayət qədər nüfuz etməyi bacarmalıdır. Hər halda hər bir şəxs istəməlidi ki, cəmiyyət daha ağıllı, daha üstün yola getsin. Yeri gəlmişkən, burada Qarabağ müharibəsini də yada salmaq yaxşı olardı, çünki Nijad Mikayılzadənin poetik yaradıcılığında, ədəbi-fəlsəfi düşüncələrində Qarabağ mövzusu da xüsusi yer tutur. Ermənilər dünyanın bizə düşmən qüvvələrinin köməyi ilə Qarabağ torpaqlarında nələr törətmədilər?! Elə təkcə Xocalı faciəsi zaman-zaman yaddaşlarda ibrət kimi yaşadılmalıdır.

Tənqidçi Qurban Bayramov sözünün sonunda qeyd edir: “Nijad Mikayılzadə rus mütəfəkkiri Odoyevskinin təbirincə, öz əsrində layiqincə tanınmamış bir cəfakeş ziyalıdır, qələm əhlidir. Həmçinin, Nijad Mikayılzadə mənim nəzərimdə bütün yaradıcılığı ilə həyatı dərindən dərk edən yaradıcı-intellektualdır. Və mən onu bu cür “Kredo”çu - müəllif kimi tanıyır, qəbul edir, qəzetdəki fəaliyyətini və qəzetin ona münasibətini alqışlayıram”. Oxucu soruşa bilər ki, ədəbi-tənqidi mətnin bir qədər geniş verilməsinin səbəbi nədir? Doğrusu, Nijad Mikayılzadə kimi müəllifin unudulmasını qətiyyən istəməzdim. Onun fəal həyat mövqeyi, yenilməyən vətəndaşlıq hünəri vardı. Belə ziyalılar əslində cəmiyyətin işığıdır. Bu işığı biz onun özündən sonra da işıqlı düşüncənin təssübkeşi kimi qorumalıyıq.

“Həyat haqqında düşüncələr” miniatür kitabında Nijad Mikayılzadənin fikir incilərindən çox dəyərli nümunələr verilib: “Yalanı doğuran qorxudur. Başçı işçilərə yalan deyir və işlərini üstüörtülü görürsə, deməli, nadürüst işləri ona öz kollektivindən qorxmağa əsas verir”, yaxud, görün hörməti necə dəyərləndirir: “Hörmət də pul kimidir, istifadə etdikcə azalır”. Belə nümunələr çoxdur və heç vaxt dəyərdən düşməyən fikir inciləri kimi oxucunun yaddaşında qalır. “Həyat haqqında düşüncələr” kitabının üzərində müəllif öz adını konkret olaraq imzası kimi verib, yəni “Nijad”.

Nijad ictimai fikir tariximizdə əbədi yaşayacaq bir ziyalıdır.

Nijad Mikayılzadənin “Həyat haqqında düşüncələr” miniatür kitabının mənim poliqrafçı tərcümeyi-halımda yer almasından qürur duyuram.

***04.10.2021***

**Şəddat CƏFƏROV**

***“Bakı mətbəəsi”nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***